# Sevincin ölüm "qoxusu"...

**Yaşamaq deyilərsə...**

Xəbərlərin o qədər növləri var ki... Xəbər var ki, insanın ömrünə ömür qatar, həyatını rövnəqləndirər, yaşamına stimul verər. Sevinc dolu şad xəbərlər ilk anda qəfil eşidilsə, deyilsə belə, həyəcan yaşansa da belə xəbərlərin arxasındakı xoşbəxtlik "qoxusu", duyğuları insanı nikbin notlara yükləyir, gələcək xoş arzulara doğru bir ümid qapısı açır. İnsanı da yaşadan ümiddir. Belə ruhda hər kəs xəbərlərin doğru, real olmasına inanar. Belə xəbərləri mən daima xalqımın cəmi övladlarına arzularam.

Xəbər də var ki, qış, sazaq qoxulu... İnsanın bir anlıq qanını dondurar, ən kəskin bıçaq, xəncər kimi qəlbinə tuşlanar, beynini dondurar. O xəbərin eşidiləcəyi an insan acının təsirindən ölər... can bədəndən çıxmasa da ruha dönər... Ələlxüsus qəfil eşidiləcək və heç bir ümid yeri olmayan bəd xəbərlər... O xəbərlərin acısı insanın beynini belə dondura bilir, necə hərəkət edəcəyini düşünə bilməz o anda insan. Ətraf qatı dumanlı qaranlığa bürünər, rənglər, səslər silinər beynindən. Hərəkətlər nizamsızlaşar, canlılar eyniləşər... Ələlxüsus bəd xəbər eşidən kimsənin can parçası o xəbərin prototipi ola.

Qəfil faciələr, müharibələr, savaşlar, terrorlar, iğtişaşlar insan ömrünü bədbin sonluğa düçar edər. Və bu hadisələrin zərərçəkənləri həyatlarını itirsələr belə onların əzizləri, doğmaları canlı "ölü yaşamına" məhkum olarlar. Bu yaşam həyati qanunların, sərəncam və əmrlərin yalnız sənədlər üzərində yaşamasına da bənzəyir... Həyatın hər üzü onlar üçün eyni olsa da, övladlarının xatirələrini yaşatmaq üçün Allah onlara ömür verər - acılarla mübarizə,"müharibə" dolu bir ömür...

**Həsrət qoxulu arzular**

İnsan harada yaşamasından asılı olmayaraq, istər-istəməz yurddaşlığını biruzə verər. Dialektindənmi, adət-ənənələrindənmi, arzu "yelkəninin" istiqamətindənmi...

Balaca Oqtay da şəhərin haylı-küylü abı-havasından uzaq, ruhunun dincələcəyi, baba-nənələrinin uyuduğu bir məkanda evi olmasını çox istərdi. Bakıda doğulsa da hər bayram və tətillərdə Qəbələyə gələr, gözəl təbiətin qoynunda xoş xatirəli günlər keçirərdi. Qəlbinin ən böyük arzusu idi ata-ana yurdunda, baba elində bir evi, ocağı olsun. Gözəllik məskəni olan qədim Qəbələ torpağının qoxusunu "öz ocağında" qoxlasın, gözəl havasını canına, ruhuna sirayət etsin, şəhərdəki "qəfəs" kimi darısqal otaqdan gözəl təbiətli Qəbələ torpağındakı evinə real bir yolu olsun. Buna görə də valideynlərinə deyərdi ki, dədə- baba elində torpaq alıb ev tikəcəm...

**Vətən arzulu, Vətən ruhlu Oqtay**

Baxşəli Ağabəyov əslən Qəbələnin Bum, Əlvadə xanım isə Uludaş kəndindəndirlər. Baxşəli Ağabəyov Bakida doğulmuşdu. Uzaq qohumu olan Əlvadə xanımla 1986-cı ildə ailə qurmuşdu. Əlvadə Uludaş kəndində doğulub orta təhsil almış və uşaqlıqdan elinə, obasına bağlı, mənəviyyatca zəngin, vətənpərvər bir insan kimi yetişmişdir. Ağabəyovlar ailəsinin 2 övladı olmuşdur: Oqtay və Leyla. Tək otaqlı evdə böyüyən hər ikisi vətənin hər qarışının gözəlliyini duyan, xalqın hər kəsinin halına "yanan", ölkəsinə böyük hörmət və sevgisi olan övladlar idi. Bəzən bu gözəl, doğma evin şirinliyindən belə qaçaraq gözəlliklər ənginliyi olan Qəbələmizə üz tutar, saflığı qəlbinə, gözəlliyi gözlərinə, bulaq suyunun paklığını vicdanına, dağların əzəmətini mənliyinə hopdurardılar. Vətənin buradan başlandığının həqiqətini dərk edərək doğma evlərinə qayıdardılar. Oqtay isə vətənindən didərgin düşənlərin, öz ocağının qoxusunu yuxu kimi xatırlayanların mənəvi tərəfini düşünərək, onların vətən həsrətini duyaraq özünü həmişə hazırlıqlı əsgər sanardı. Oxuduğu nəğmələrdən bu misra: - Sən bu yurda söykəlisən, bu yurd sənə!.. -dodağının zümzüməsi idi.




Oqtay Ağabəyov 1987-ci ildə Bakıda doğulub. Nizami rayonunun 70 saylı orta məktəbində orta təhsil almışdır. Orta məktəbi başa vurduqdan sonra Azərbaycan Dövlət Neft Akademiyasının energetika fakültəsinə qəbul olunmuşdur. Universiteti bitirdikdən sonra həqiqi hərbi xidmətə çağrılmış, Kəlbəcər - Murov istiqamətində hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra Bakıya qayıtmış və müxtəlif təşkilatlara işə qəbul üçün sənəd vermişdir. Nəhayət, SOCAR-da işə qəbul olunmuşdur. O həmişə öz üzərində çalışır, həmçinin xarici dilləri belə öyrənərdi. Qəlbində o qədər arzuları var idi ki... Son vaxtlar birotaqlı evlərində də dəyişikliklər edir, evi təmirə başlatmışdı. Əlvadə xanım oğlunun toyuna hazırlaşırdı. Qızı Leyla ailə qurmuşdu. Ancaq Baxşəli və Əlvadə Ağabəyovlar nəvə istəyini, şirinliyini oğul övladından da görmək istəyirdi.

2020-ci il iyul hadisələri, eloğlumuz Polad Həşimovla birgə igid oğullarımızın şəhid olması Oqtayı da sarsıtmışdı. Torpaqlarımızın yalnız döyüş yolu ilə alınması artıq onun da ən başlıca fikri iidi.

Həmin ilin sentyabrında səfərbərlik haqda söhbət gedən kimi özü könüllü olaraq yenidən hərbi xidmətə, torpaqlarımızın yağı tapdağından azad olması üçün döyüşmək arzusuyla hərbi komissarlığa ərizə vermişdi.

Qisas müharibəsi başlanmışdı və döyüş xəbərlrini hər an izləyən Oqtay yaxın dostu Vüqarın da şəhid olması xəbərini eşitdikdə yenidən hərbi komissarlığa müraciət etdi. Oktyabrın 9-da o, dostları ilə evə gəldi və ailəsi ilə görüşüb orduya - döyüş bölgəsinə yola düşdü. Əlvadə xanımla söhbət zamanı öyrəndik ki, Oqtay hay-küyü xoşlamadığı üçün onu yola salarkən nə ağlaya bilmiş, nə də səsini yüksəldərək niyə belə etdin deyə bilmiş. Çünki Oqtayın baxışlarından, söhbətlərindən aydın olurdu ki, o, şəhidlərimizin qanını yerdə qoymayacaq, döyüşlərə mütləq gedəcək!..

Mehriban olduğu qədər də ağırtəbiət biri idi. Ailəsi ilə telefonla hər gün danışar və harada olduğunu soruşduqda Pirişküldə olduğunu söylərdi.

4 gün onun telefon zəngini eşitməyən ailəsi çox narahat idi. Ailəsi oktyabrın 19-dan sonra onunla əlaqə saxlaya bilməmişdi. Sonradan öyrəndilər ki, Oqtay oktyabrın 19-da Füzuli rayonunun Yuxarı Əbdürəhmanlı kəndində ağır yaralanmış və bir gün Xocavənddə qaldıqdan sonra Bakiya, Popanin qospitalına gətirilmişdir. Yaralı 12 gün xəstəxanada yatdıqdan sonra noyabrın 2-də şəhid olmuşdur.

Oqtay Xocavənd və Füzuli, Suqovuşan, Tərtər, Ağdərə, Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmişdi.

Ölümündən sonra "Xocavəndin azad olunması", "Füzulinin azad olunması" medalları ilə təltif olunmuşdur.

**Arzuları çilikləndi...**

Qəlbi dolu idi arzularla... Əlil atası, hər gün işə tələsən anası, körpə övladları və ailəsi ilə ata evindən xeyli uzaq kirayə evdə yaşayan bacısı onun arzularını istəyincə həyata keçirə bilməzdi. Yeni ev almaq arzusunu həyata keçirə bilmədikdə, bu evi təmir etdirib, dəyişikliklər edib ailə qurmaq, işində daha böyük titullar qazanmaq, ata-anasının simasını həmişə nikbin görmək,onları xoşbəxt etmək... qəlbində özünəməxsus o qədər arzuları var idi ki... 33 yaşlı, ali təhsilli, gözəl mütəxəssis kimi çalışan birinin arzuları... Binanın qarşısında onun memorial şəkli və güllü bağça ailənin arzularının bitkin nöqtəsidir. O güllər heç vaxt solmur ki... Oqtayın bahar ömrü kimi... Şəklinə baxdıqca gözlərinin dərinliyində nakam qalmış sevgi nağılı, gerçək həyatın əbədiyyət qoxusu hiss olunur... və hər kəslə elə intellekt səviyyə ilə, ağıllı və mehriban, nikbin söhbət edir ki Oqtay... Bağçasından Qəbələ güllərinin ətri, baxışlarından eloğluluq şirinliyi, doğma, yaxın bir insan hissləri qəlbləri sarır...

**BİBİXANIM.**

# Xalqa bağışlanan ömür

Dünya tarixində eyni şəxsiyyətin hər hansı bir ölkəyə, xalqa iki dəfə rəhbərlik etməsi tək-tək hallarda olub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz həmin nadir şəxsiyyətlərdəndir. Həm də bu vəzifə ulu öndərimizin çiyinlərinə Azərbaycanın tarixinin bir-birinə bənzəməyən ayrı-ayrı dövrlərində, xalqın müxtəlif problemlər yaşadığı zamanlarda düşüb. ümummilli liderin qətiyyəti, prinsipiallığı, diplomatik səyi və böyük dövlətçilik təcrübəsi sayəsində dövlətçiliyimizə və müstəqilliyimizə qarşı edilən bütün qəsdlərin qarşısı alındı. Ulu öndərin özü deyirdi ki, gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür. Bütün fikirləri kimi, ümummilli liderin bu sözləri də dahiyanədir. Bu gün biz hər yerdə, hər sahədə ümummilli liderimizin həyata keçirdiyi, eləcə də təməlini qoyduğu işlərin bəhrəsini görürük. Müdrik Prezidentimiz ilham Əliyevin rəhbərliyi ilə müstəqil vətənimiz bütün çətinlikləri və maneələri dəf edərək zəfərdən zəfərə doğru gedir və bu, tək bir sahəyə aid deyil. Ulu öndərin əməllərinin yaşaması, arzularının çin olması, vəsiyyətlərinin yerinə yetirilməsi Azərbaycanımızı da, onun qürurlu vətəndaşları olan bizləri də yaşadır.

Müasir, müstəqil Azərbaycanın banisi, nəhəng dövlət xadimi Heydər Əliyevin xalqımızın əbədiyaşar lideri kimi gördüyü mütərəqqi işləri ölkəmizin dünyada tanınmasına təkan vermişdir 1969-82-ci illər ölkə həyatında baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan köklü struktur islahatların xarakterinə, xalqın maddi rifah halının yüksəlməsinə görə Azərbaycanın hərtərəfli tərəqqisində mühüm mərhələ idi. Bu dövrdə respublika iqtisadiyyatında böyük bir canlanma baş vermişdir.

Güclü iradəyə və milli ruha malik olan ulu öndər Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə öz xalqının iradəsinə tabe olaraq 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmaqla respublikamızın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasına və ən nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmdə uğur qazanmasına nail olmuşdur. Azərbaycanın yeni tarix salnaməsinə qızıl hərflərlə yazılmış Heydər Əliyev dövrü hər bir azərbaycanlı üçün çox gərəkli bir tarixdir. Xalqımız gələcəyə böyük ümidlə baxır və öz taleyini Heydər Əliyevin milli dövlətçilik ideyalarının sadiq davamçısı, yüksək intellektə malik və praqmatik düşüncəli siyasətçi olan İlham Əliyevə etibar etmişdir.

Ölkəmizin müstəqilliyinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır. 1993-2003-cü illəri əhatə edən ikinci mərhələ Azərbaycan xalqının həyatında baş verən taleyüklü dövrü - müstəqilliyimizin möhkəmlənməsi dövrünü əhatə edir. 1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın yüksək sürətlə davamlı inkişafı üçün zəmin yaratmışdır.

Müstəqil Azərbaycanın həyatında mühüm iqtisadi və siyasi qərarları ilə yaddaşlarda iz qoymuş xalqımızın əbədi lideri, ömrünün 60 ildən çoxunu doğma xalqına, onun gələcək xoşbəxtliyinə sərf edən, xalqın ən ağır və çətin günündə onu öz şəxsi zəkası, müdrikliyi və siyasi uzaqgörənliyi hesabına xilas edən ulu öndər nəinki ölkəni iqtisadi və siyasi uçurumdan çıxardı, eyni zamanda xalqımızın gələcək inkişaf yolunun möhkəm təməlini qoyaraq Azərbaycanın 10 illər sonra da inkişaf istiqamətini proqnozlaşdırmaqla dövlətimizin qlobal inkişaf yolunu müəyyənləşdirdi. Ölkəyə rəhbərliyi dövründə bütün sahələr kimi statistika da ümummilli liderin diqqətindən kənarda qalmamışdır. Respublikamız müstəqillik əldə etdikdən sonra statistikanın inkişafına dair 5 dövlət proqramı qəbul edilmiş və müvəffəqiyyətlə yerinə yetirilmişdir ki, onlardan ilk iki proqram ulu öndərin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir.

Ulu öndər çıxışlarının birində qeyd etmişdir: "Bizim Dövlət Statistika Komitəsi var, o çox düzgün statistika aparır". Bu fikrin özü statistika sahəsində çalışan bütün mütəxəssislərə verilən ən yüksək qiymət idi. Heydər Əliyevin rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi statistika sistemində də islahatlar aparılmağa başlanılmış, statistika orqanlarına dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilmiş, əmək şəraiti nəzərə çarpacaq dərəcədə yaxşılaşdırılmış, iş yerləri genişləndirilmiş, müntəzəm olaraq avadanlıqlarla təchiz edilmişdir. Hazırda dövlət proqramına uyğun olaraq bu işlər uğurla davam etdirilir.

Bu gün Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Ölkəmizin dinamik inkişafı Heydər Əliyev siyasi kursunun məntiqi nəticəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan dünya birliyində öz yerini daha da möhkəmləndirərək Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

Ulu öndər ideyalarının XX əsrin sonlarında Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, təhsil və elm sahəsində, eləcə də azərbaycançılıq ideologiyasının inkişafında rolu böyükdür.

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin bütün dövrlərində xalq, dövlət, cəmiyyət üçün yorulmadan fəaliyyət göstərib, dünya şöhrətli dövlət xadiminin əvəzsiz xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur. Fenomen şəxsiyyət Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mühüm işlər görüb.

Ulu öndər Heydər Əliyev müdrikliyi, onun təkcə dövrünün qayğı və problemləri ilə yaşamaması, zamanı qabaqlayaraq irəlini görməsi, gələcəkdə ölkəni uğurla idarə edə biləcək lider yetişdirməsindədir. Dahi rəhbərin müəyyən etdiyi siyasi kursu xalqımız yekdilliklə dəstəkləyərək onun davam etdirilməsini Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi və bayraqdarı, bütün fəaliyyətini Azərbaycan dövlətinin strateji maraqlarının aliliyinə və işıqlı gələcəyinə həsr edən Prezident cənab İlham Əliyevə etibar edib. Bir həqiqətdir ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində ciddi uğurlar əldə edilib, xalqımız və dövlətimiz üçün, sözün əsl mənasında, taleyüklü sayılan, həyat əhəmiyyətli transmilli layihələr reallaşıb.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi Azərbaycanın hər guşəsində, eləcə də azərbaycanlıların yaşadıqları xarici ölkələrdə böyük təntənə ilə qeyd olunmaqdadır. Bu tədbirlər tarixi şəxsiyyət olan Heydər Əliyevin misilsiz xidmətlərinə qədirbilən xalqımız tərəfindən verilən qiymətin, sonsuz ehtiram və sevginin, inamın təzahürüdür.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**